

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Nağçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 35 (23.447)

21 fevral 2020-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

İtaliya Respublikasında dövlət səfərində olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 20-də Romada rəsmi qarşılanma mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün İtaliya Respublikasının Prezidenti Sercio Mattarella ilə təkbətək görüşüb.

Prezident İlham Əliyevin və İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olub, prezidentlər mətbuata bəyanatlarla çıxış ediblər.

Dövlətimizin başçısının fevralın 20-də İtaliya Respublikası Nazirlər Şurasının Sədri Cüzeppe Konte ilə təkbətək görüşü olub, görüş başa çatandan sonra Azərbaycan-İtaliya sənədlərinin mübadiləsi mərasimi keçirilib.

Prezident İlham Əliyev həmin gün İtaliya Respublikası Senatının Sədri, senator xanım Maria Elisabetta Alberti Kaselatti və İtaliya Respublikası Deputatlar Palatasının sədri Roberto Fiko ilə görüşüb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 20-də Romadakı "Altare della Patria" memorial kompleksində naməlum əsgər abidəsini ziyarət ediblər.



## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yenilənmiş saytının təqdimatı olub



*Fevralın 20-də Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin yenilənmiş internet saytının təqdimatı olub.*

Bu münasibətlə keçirilən tədbirdə nazir Nicat Babayev çıxış edərək bildirib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ictimaiyyətlə əlaqələr, kütləvi informasiya vasitələri ilə qarşılıqlı əməkdaşlıq daim diqqət mərkəzində saxlanılır. Bu məqsədlə ötən il nazirliyin müxtəlif sosial şəbəkələrdə rəsmi hesabları istifadəyə verilib və bu sahədə operativ fəaliyyət təmin olunub.

Qeyd edilib ki, müasir dövrdə informasiya mübadiləsi baxımından sosial şəbəkələrlə yanaşı, internet saytları da geniş imkanlara malikdir. Bu gün nazirliyin təqdimatı keçirilən rəsmi saytı da müasir iş prinsiplərinin və innovativ yeniliklərin tətbiqi, həmçinin sosial sahədə ictimai fəaliyyəti gücləndirmək və kütləvi informasiya vasitələri ilə əlaqələrin daha dinamik və operativ şəkildə qurulmasını təmin etmək məqsədilə yenilənib. Artıq saytda struktur bölmələri haqqında yenilənmiş məlumat bazası ilə yanaşı, peşə kurslarına qoşulmaq üçün onlayn müraciət forması və elanlar, sosial fəaliyyət istiqamətləri haqqında yeni informasiyalar yer alıb. Bu məqsədlə saytda ən çox müraciət olunan sahələr və istiqamətlər üzrə təkmilləşdirmə işləri aparılıb, yeni bölmələr yaradılıb.

Nazirliyin əməkdaşı Naib Əlizadə yenilənmiş *sosial.nmr.az* internet saytını təqdim edib. Məlumat verilib ki, sayt həm funksionallıq, həm də dizayn baxımından müasir tələblərə uyğunlaşdırılıb, elektron xidmətlərin həcmi genişləndirilib. Müxtəlif proqramlarla təkmilləşdirilən saytın yeni versiyasında "Əsas səhifə", "Nazirlik", "Elektron xidmətlər", "Qanunvericilik", "Göstərilən xidmətlər", "Sosial könüllülük", "Mətbuat xidməti", "Əlaqə" bölmələri yaradılıb. Yeni yaradılan "Göstərilən xidmətlər" bölməsində Naxçıvan Protez-Ortopedik Bərpa Mərkəzində hazırlanan məmulatlar haqqında zəruri məlumatlar yerləşdirilib. Məlumatlar müvafiq fotoşəkillərin fonunda iki dildə – Azərbaycan və fars dillərində verilib ki, bu da mərkəzin fəaliyyətindən xarici vətəndaşların da istifadə imkanlarını asanlaşdırır. Qeyd olunub ki, yaradılan daha bir yeni bölmə "Sosial könüllülük" bölməsidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Gənclər Fondunun birgə təşkilatçılığı ilə ötən il yaradılan və cəmiyyət tərəfindən böyük rəğbətlə qarşılanan sosial könüllülük layihəsi üçün xüsusi hazırlanmış bölmədə layihə haqqında məlumat, videoçarx, sosial könüllü gənclərin fərdi qaydada hazırlanmış foto və məlumatları, həmçinin akademiyaya elektron qeydiyyat imkanları mövcuddur. Eyni zamanda internet istifadəçiləri arasında üstünlük təşkil edən gənclər buradan sosial könüllülük fəaliyyətini yaxından izləyə və yeni könüllü kimi qeydiyyatdan keçə bilərlər. "Fotoqalereya" və "Videoqalereya" bölmələrinin də yaradıldığı saytın "Əsas səhifə"sinin sol və sağ hissələrində faydalı keçidlər də yerləşdirilib. Saytda yeniliklərin tətbiqi zamanı muxtar respublikamızın turizm potensialının təbliği də diqqət mərkəzində saxlanılıb. Bu məqsədlə "Əsas səhifə"də diyarımızın tarixi və görməli məkanlarından görüntülərə yer verilib, Naxçıvanın turizm imkanlarını özündə əks etdirən saytlara birbaşa keçid qurulub.

Qeyd edək ki, *sosial.nmr.az* saytının serveri Rabitə və Yeni Texnologiyalar Nazirliyində yerləşir və təhlükəsizliyinə zəmanət verilir.

**Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti**

*Naxçıvan Dövlət Universitetində 21 fevral – Beynəlxalq Ana Dili Gününə həsr olunmuş "Dilimiz milli sərvətimizdir" adlı tədbir keçirilib.*

## Beynəlxalq Ana Dili Günü qeyd edilib

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev ana dilinin hər bir xalqın həyatındakı müstəsna rolundan bəhs edib. 21 fevral – Beynəlxalq Ana Dili Gününün tarixindən söz açılıb, bu əlamətdar günün dünyada geniş qeyd olunduğu bildirilib. Vurğulanıb ki, ölkəmizdə ana dilinin hərtərəfli inkişafı, beynəlxalq münasibətlər sisteminə yol tapması bu dilin gözəl bilicisi, ulu öndər Heydər Əliyevin onun qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. Rektor ana dilinin saflığının qorunmasının, ədəbi dil normalarının gözlənilməsinə nəzarət edilməsinin, həmçinin dilimizin yad ünsürlərdən mühafizəsinin hazırda ali təhsil müəssisəsinin başlıca vəzifəsi olduğunu diqqətə çatdırıb.



Azərbaycan dili və ədəbiyyat kafedrasının professoru, filologiya üzrə elmlər doktoru Sədaqət Həsənova "Zəlimxan Yaqub və ədəbi dilimiz" adlı çıxışında bildirib ki, zəngin və çoxşaxəli yaradıcılığı boyu Türk dünyasının tarixi şəxsiyyətlərinə, şair və yazıçılarına müraciət etməsi ustad şairin əsərlərinin mövzu-ideya, forma-məzmun cəhətdən, dil zənginliyi baxımından bənzərsizliyini göstərən uğurlu cəhətlərdəndir.

"Ana dilimizə dövlət qayğısı" adlı çıxışında Azərbaycan dili və ədəbiyyat kafedrasının dosenti Qənirə Əsgərova əsası ümummilli lider tərəfindən qoyulmuş dil siyasətini bu gün ölkə başçısı cənab İlham Əliyevin uğurla davam etdirdiyini diqqətə çatdırıb. Məlumat verilib ki, Beynəlxalq Ana Dili Günü YUNESKO-nun 1999-cu ildə keçirilən Baş Konfransının 30-cu sessiyasında təsis edilib və 2000-ci il fevralın 21-dən dil və mədəniyyət rəngarəngliyini qoruyub saxlamaq məqsədilə qeyd edilir.

Sonda tələbələr ana dilinə həsr olunmuş şeirlər söyləyiblər.

**Səadət ƏLİYEVA**

* * *

Naxçıvan Müəllimlər İnstitutunda keçirilən "Azərbaycan dili müasir dünyada: ekstralinqvistik və linqvistik problemlər" adlı elmi-praktik konfransı giriş sözü ilə institutun rektoru Azad Novruzov açıb. Rektor hər bir millətin maddi və mənəvi irsinin qorunması və inkişafında dilin əvəzsiz rolundan danışaraq ana dilimizin dövlət dili statusuna yüksəldilməsinin milli dövlətçilik tariximizin qızıl səhifəsi olduğunu vurğulayıb. Bildirilib ki, dilimizin dövlət dilinin tətbiqi və təbliğində, qorunmasında və hərtərəfli inkişafında ulu öndər Heydər Əliyevin düşünülmüş siyasəti mühüm rol oynayıb.



Tədbirdə "Beynəlxalq Ana Dili Gününün yaranması və mahiyyəti" mövzusunda çıxış edən professor Akif İmanlı Azərbaycan dilinin saflığı və təmizliyinin qorunması üçün qəbul edilmiş qanun, imzalanmış fərman və sərəncamlar barədə də tədbir iştirakçılarını məlumatlandırıb.

"Azərbaycan dilinin üslubi imkanları və məna çalarlıqları" mövzusunda çıxış edən dosent Fəxriyyə Cəfərova dilimizin işlənmə arealı, onun çoxmənalılığı və üslubi çalarlığı ilə bağlı fikirlərini ifadə edib.

Sonda tələbələr ana dilimizlə bağlı şeirləri bədii qiraət ediblər.

**Naxçıvan Müəllimlər İnstitutunun mətbuat xidməti**

## Müsabiqənin müsahibə mərhələsi keçirilir

*Dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün 18 sentyabr 2019-cu il tarixdə elan edilmiş müsabiqənin müsahibə mərhələsinə 20 fevral 2020-ci il tarixdən start verilib.*



Namizədlərin daha çox sənəd təqdim etdiyi dövlət orqanları sırasında Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (203 nəfər), Dövlət Statistika Komitəsi (95 nəfər), Təhsil Nazirliyi (67 nəfər) və Maliyyə Nazirliyi (37 nəfər) üstünlük təşkil etmişdir. Müsahibədə ilk olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində işləmək istəyən namizədlər iştirak ediblər.

Hazırlıq məqsədilə əvvəlcə namizədlərə seminar keçirilib, müsahibə zamanı obyektivliyin və şəffaflığın təmin olunması məqsədilə müsahibə qrupunun tərkibində müstəqil ekspertlər, Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın və dövlət orqanlarının nümayəndələri iştirak edirlər. Həmçinin müsahibə prosesinin videoçəkilişi aparılır.

Qanunvericiliyə uyğun olaraq keçid balını toplamış namizəd haqqında məlumatlar müvafiq dövlət orqanına təqdim edilir. Müsahibənin nəticələri haqqında məlumatlar dərhal Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında yerləşdirilir.

Qeyd edək ki, 23 dövlət orqanı üzrə müsabiqəyə çıxarılan 225 vakant vəzifənin tutulması üçün 574 namizəd sənəd verib. Test mərhələsində müvafiq keçid balını toplamış 269 namizəddən 267-si tərəfindən müsahibə mərhələsində iştirak etmək üçün sənədlər Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim olunub. Həmçinin ötənilki müsabiqənin test imtahanlarında qanunvericiliklə müəyyən edilmiş keçid balını toplamış və inzibati vəzifə üzrə sertifikat əldə etmiş 20 namizədin müraciəti nəzərə alınaraq müsahibə mərhələsində iştirak etmələri üçün onlara lazımi köməklik göstərilib.

Digər dövlət orqanları üzrə müsahibələr Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın rəsmi internet portalında yerləşdirilmiş qrafikə uyğun olaraq 6 mart 2020-ci il tarixədək davam edəcəkdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın mətbuat xidməti**

Tarixdən bu günə

# Yenilməz müdafiə qalamız – SƏDƏRƏK

*Naxçıvan Muxtar Respublikasının inzibati ərazi vahidinə daxil olan Sədərək həm də bölgənin qeyrət qalası adlanır. Sədərək 1990-cı illərdə mərdliklə qorunaraq öz adını tarixin qəhrəmanlıq və mübarizə dolu səhifələrinə yazdırdı. Qala qapısı rolunu oynayaraq Naxçıvanın erməni işğalından müdafiə olunmasına öz töhfəsini verən Sədərək rayonunun yaranmasının bu il 30 ili tamam olur. Ucubiz, Əjdəkan, Vəlidağ və Tejqar dağ silsilələri ilə əhatələnən Sədərək ərazisi iki xarici ölkə ilə – Türkiyə və Ermənistanla həmsərhəddir. Rayon özündə bir qəsəbə, üç kəndi birləşdirir.*



### Qədim yurd yerimiz

"Naxçıvan Ensiklopediyası"nda qeyd olunur ki, Sədərək Naxçıvan ərazisində Eneolit dövrünə aid yaşayış məskənlərindən və mədəniyyət ocaqlarından biridir. 1958, 1978, 1983 və 2000-ci illərdə aparılan arxeoloji qazıntılar zamanı burada Eneolit və İlk Tunc dövrlərinə aid yaşayış yeri aşkar edilib. Əldə olunan əmək alətləri, keramika məmulatları və digər maddi mədəniyyət nümunələri hazırda Sədərək Rayon Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyasını bəzəyir. Sədərək ərazisində bu günə qədər "Əjdəkan", "Cin təndiri", "Cəhənnəm dərə", "Şir arxı", "Dəhnə", "Qaraburun", "Qırmızılar", "Karvansaray" kimi qədim yer adlarının olması bu yurd yerinin tarixi keçmişindən soraq verir. Əjdəkan dağının ətəyində yerləşən Əjdəkan mağarası, bir qədər aşağıda 7 ildən bir qaynayıb çıxan Cincili bulaq, insanların teztez ziyarət etdikləri Ağoğlan piri, Sədərək qalası, "Div hörən" deyilən siklop tikili qalıqları haqqında dolaşan əfsanə və rəvayətlər bu gün də elin yaddaşındadır. Həmçinin Sədərək qəbiristanlığında XVIII-XIX əsrlərə dair məzar kitabələri mövcuddur ki, bu da tə keçmiş zamanlardan türklərin həmin ərazidə məskunlaşdığını göstərir. Ümumilikdə, Sədərək bölgəsində 3 dünya, 11 ölkə, 14 yerli əhəmiyyətli tarixi abidə mövcuddur. Ərazidə XX əsrin əvvəllərinə aid edilən hamam, 2 tarixi məscid binası burada həm də memarlığın tarixi inkişafından xəbər verir. Tarixi qaynaqlarda sədərəkli memar Məhəmmədin, Təqi oğlu Məşədi Əhmədin adları keçir.

2010-cu ildən arxeoloji tədqiqatlara cəlb edilən Sədərək yaşayış yeri Eneolitdən Son Dəmir dövrünə və orta əsrlərədək böyük bir dövrü əhatə edir. Abidə xalq arasında Kültəpə, şəhər yeri adları ilə də tanınır. Ərazidə əmək alətləri, eləcə də Son Tunc və Erkən Dəmir dövrlərinə aid keramika məmulatları üstünlük təşkil edib.

Səfəvilər dövründə Sədərək Naxçıvanın digər bölgələri ilə birlikdə Çuxursəd bəylərbəyliyinin tərkibində olub. Ticarət-karvan yollarının kəsişdiyi yerdə yerləşən Sədərək orta əsrlərdə şəhər səviyyəsinə yüksəlib. Fransız səyyahı Jan Şarden, türk səyyahı Övliya Çələbi və digərləri öz qeydlərində Sədərəkdən də bəhs ediblər. "İrəvan əyalətinin icmal dəftəri"ndə Sədərək nahiyəsinin 24 kənddən ibarət olduğu qeyd olunub.

Qədim tarixə malik olan Sədərəyin adına "Kitabi-Dədə Qorqud" dastanında da rast gəlinir. Tədqiqatçılar dastandakı Səgrək adının toponimləşərək Sədərək oykoniminə çevrildiyi qənaətindədirlər. "Sədərək" sözünün etimologiyasının "Çox adam yaşayan yer" mənasını bildirən "Sədrək", ərəbcə "düşərgə" mənasını ifadə edən "Sədər", XIV əsrdə bu ərazilərdə yaşamış "Səədli" tayfasının adları ilə əlaqəli olduğunu iddia edənlər də var. İstənilən halda Sədərək qədim oğuz-türk yurdudur və bunu sübut edən tarixçilərin kifayət qədər ortalığa çıxardığı faktlar mövcuddur.

Bu torpağın yetirməsi, mərhum şairimiz Vaqif Məmmədovun təbirincə desək:

*Tarix hopub bu yerdə hər kəlməyə,*
*Qarışında neçə nağıl, söz olar.*
*Sədərəyin tarixini bilməyə*
*İnsan üçün bir ömür də az olar.*

### Üzümçülüyün məskəni

Sədərəklilərin əsas məşğuliyyətini tarixən əkinçilik təşkil etsə də, sonralar təsərrüfatlarında üzümçülük də yer alıb. Bu barədə faktları Övliya Çələbinin "Səyahətnamə"sindən oxuyuruq: "Biz Sədərək kəndinə çatdıq. Naxçıvan torpağında yerləşən kənd gözəl və abaddır, min gözəl evi, saysız-hesabsız bağ və üzümlükləri, xoş iqlimi var". Sovetlər dönəmində ən gözəl şərab emalı mərkəzlərindən biri məhz Sədərək hesab olunub. Bu yerin bol bəhrəli üzüm bağları 3 şərab emalı sahəsinin inkişafına rəvac verib.

Hələ 1974-cü ildə Naxçıvan MSSR-in yaradılmasının 50 illiyi tədbirlərində iştirak etmək üçün Naxçıvana gələn ümummilli lider Heydər Əliyev Sədərəkdə olmuş, yeni salınmış üzüm bağlarında kənd əməkçiləri ilə görüşmüşdür. Ulu öndər Sədərək ərazisindən səmərəli istifadə olunması, üzümçülük təsərrüfatının genişləndirilməsi, Ermənistanla lap sərhəddə şərab zavodunun tikilməsi tapşırıqlarını vermişdir. Azərbaycan KP MK-nın birinci katibi, görkəmli dövlət xadimi Heydər Əliyev 1977-ci ildə Bakıda kənd əməkçilərinin respublika müşavirəsindəki nitqində Azərbaycan üzrə ən yüksək göstəricilərə nail olan 10-12 təsərrüfatın sırasında



Sədərək üzümçülük sovxozunun da adını çəkir, Süleyman Nəsirovun sovxozdakı briqadasını Azərbaycanda üzümçülüyün mayaklarından biri kimi qiymətləndirir. 70-ci illərin sonlarına doğru Sədərək nəinki muxtar respublikanın, hətta ölkənin ən iri və diqqət mərkəzində olan üzümçülük təsərrüfatı məkanlarından birinə çevrilir.

1978-ci il oktyabrın 15-də respublika rəhbəri kimi 2-ci dəfə Naxçıvana gələn ulu öndər Sədərəklə Ermənistan arasındakı boş ərazidə əhali ilə görüşür. O, kənd ağsaqqallarına, ziyalılara Sədərək üçün gələcəkdə görüləcək işlər barədə, xüsusilə burada salınacaq nümunəvi yaşayış qəsəbəsindən bəhs edir. Elə oradaca Naxçıvan-İrəvan magistralının üstündə salınacaq bu qəsəbənin proyektinin Pribaltikadan gətirilməsi barədə tövsiyə və tapşırıqlarını verir.

Beləliklə, sərhəddəki boş ərazidə görkəmli dövlət xadiminin şəxsi təşəbbüs və qayğısı ilə Pribaltika layihəsi əsasında nümunəvi bir qəsəbə salınır və Sədərəkdəki yüzə yaxın ailə həmin qəsəbəyə köçürülür. Ən əsası isə düşmənə gözdağı olan bu qəsəbənin salınması ilə sərhəd bir qədər də möhkəmləndirilir…

1980-ci il may ayının 19-da yenə İrəvandan avtomaşınla Naxçıvana gələn ümummilli lider Sədərəyin bir çox əkin sahələrində olmuş, əməkçilərlə və kənd ağsaqqallarının nümayəndələri ilə görüşüb kəndin problemləri ilə bağlı söhbətlər aparmışdı. Dahi rəhbərin Naxçıvana və Sədərəyə hər gəlişi bu qəsəbənin inkişafına stimul vermişdir.

Ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə sərhəddə inşa edilən və Şərur-Sədərək bölgəsinin iqtisadi həyatında mühüm yer tutan şərab emalı zavodu fəaliyyətini davam etdirir. Ta ermənilər bu zavodu dağıdana qədər...

Atalar yaxşı deyib: "Dişin ağrıyır,





Sədərəyin qəhrəman müdafiəçiləri

çək qurtar, qonşun pisdir, köç qurtar". Üzqarası olan bu ermənilərlə nə istəyərəkdən qonşu olmuşuq, nə də xəritədə tarixən yerləşdiyimiz ərazilər yanaşı olub. Fakt budur ki, tarixi saxtalaşdırmaqda mahir olan ermənilər zamanla torpaqlarımıza yerləşdirilib. Özlərini məzlum və zavallı xalq, mehriban qonşu kimi göstərməyə müvəffəq olan bu toplum yerləşdikdən sonra öz coğrafiyalarını genişləndirməyə, yerlərini bərkitməyə nail olub. Və beləliklə, tarixi torpaqlarımız sahibləniblər. Çar Rusiyasının yarı köçürülmə, yarı qəsbkarlıq siyasəti nəticəsində Sədərəyin ta yaxınlığınacan gəlib çıxa biliblər.

Lakin bu, digər qonşuluqlara bənzəməz. Torpağı nə pay vermək olar, nə də tərk etmək. 1990-cı il Sədərək hadisələri nəinki Sədərəyin, Azərbaycanın tarixində mühüm bir səhifəni təşkil edir. Lakin gəlin görək ermənilərin Sədərəyə, ümumən, Naxçıvana, Azərbaycana torpaq iddiaları 1990-cı illərdənmi başladı? – Xeyr. Bunun tarixi kökləri keçmişə dayanır. Və erməni fitnəkarlığı zamanla özünü bürüzə verib. 1905-1907, 1918-1920-ci illərin o ağır, qanlı-qadalı günləri Sədərəkdən də yan keçməyib.

1918-1920-ci illərdə Sədərək əhalisinin erməni daşnaklarına qarşı apardığı mübarizədə Abbasqulu bəy Şadlinskinin rəhbərliyi ilə təşkil olunmuş "Qırmızı Tabor"un böyük xidmətləri olub. Onun əsas qərargahı bir müddət Sədərəkdə yerləşib. Taborun üzvlərindən 40 nəfəri sədərəkli olub. Onlardan Həsən Şahverdiyev, Heydər Heydərov, Müseyib Tarverdiyev, Ələkbər Sadiqov, Nəcəf Əliyev, Qafar Əliyev, Qasım Hüseynov, Allahverdi Cəfərov, Zeynalabdin Həsənov, Yusif Əliyev, Məhəmməd Əkbərov, Həbib Bağırovun adlarını çəkmək olar. Bu igidlərlə yanaşı, Zəhra Dünyamalıyeva adlı qadın da olub. Ermənilərə olan nifrətini silaha sarılaraq mübarizə aparmaqla ifadə edib. Kişi libasında kişi kimi döyüşüb.

Həmin dövrlərdə Dərələyəz və Zəngəzur dağlarına çəkilmiş daşnak dəstələri hücumları ilə Şərur əhalisini rahat buraxmırdı. "Qırmızı Tabor"un döyüşçüləri 40 kilometrlik cəbhə xəttində düşməni geri oturtmuş və bu döyüşlərdə böyük qəhrəmanlıq nümunəsi göstərərək yurdu qorumuşlar. 1921-ci ildə Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur, Şərur və digər yerlərin erməni daşnaklarından təmizlənməsində fərqləndiklərinə görə "Qırmızı Tabor"un "Qırmızı Bayraq" ordeni ilə təltif olunmuş 19 döyüşçüsünün 4 nəfəri sədərəkli olub: Qasım Hüseynov, Nəcəf Əliyev, Qafar Əliyev, Ələkbər Sadiqov.

"Qırmızı Tabor"un fəal üzvlərindən olan Sədərək taborunun komandanı Həsən Şahverdiyev 17 nəfərlə kəndi mühafizə ediblər. Bununla belə, Sədərəyin bu qəhrəman oğlu həmkəndlilərinin yaddaşında xeyirxah əməlləri ilə də qalıb. Belə ki, 1929-cu ildə onun təşəbbüsü ilə dağlardan daş daşınaraq çətinliklə də olsa, 4 sinifli məktəb tikilib.

### Köç

Beləliklə, zaman "mehriban qonşuluğ"un əsl iç üzünü ortalığa qoydu. Erməni fitnəkarlığı illər sonra yenə də özünü göstərdi. Yenə qəfil hücum, yenə hiylə, yenə əsassız torpaq iddiası...

Şair-publisist Vaqif Məmmədovun "Sədərəkdə yazılan gündəlik" kitabından oxuyuruq: "Şərurdan Sədərəyə gəlirdik. Dəmirçi kəndinin yaxınlığında gözləmədiyimiz və o vaxta qədər görmədiyimiz çox böyük bir maşın karvanı ilə rastlaşdıq. 150-200 yük maşınından ibarət bu karvanla Ermənistanda yaşayan azərbaycanlılar köçürülür... Ən daşqəlbli adam da bu mənzərəni, bu faciəni görsə, dəhşətə gələr (21 noyabr 1988-ci il)".

Bu faciə tarixin müxtəlif dönəmlərində yaşanıb. Bəhruz Kəngərlinin 1918-1920-ci illərdə yaratdığı "Qaçqınlar" silsilə əsərlərində əks olunub. Sovet dövründə də bu hadisə təkrarlanıb. 1948-1953-cü illər deportasiya tarixinə nəzər salmaq kifayətdir ki, minlərlə insanın acı taleyini təsəvvür edəsən. İ.Stalinin SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli qərarında göstərilir ki, "könüllülük prinsipləri əsasında" Ermənistan SSR-də yaşayan 100 min kolxozçu və digər azərbaycanlı əhali Azərbaycan SSR-nin Kür-Araz ovalığına köçürülsün. Məqsəd Ermənistandan, daha doğrusu, əzəli ata-baba yurdlarımızdan azərbaycanlıları təmizləmək, ərazini erməniləşdirmək idi. Ermənilərin digər planı "Böyük Ermənistan"a Naxçıvanı da daxil etmək olub. Lakin illərlə planlarını gerçəkləşdirə bilməyən ermənilər şanslarını bir də ötən əsrin 90-cı illərində sınamağa başladılar. İşğalçılıq planlarını sərhədboyu həyata keçirməyə cəhd edən ermənilərdən ən böyük zərbəni Sədərək aldı. 14 dəfə düşmənin qəfil hücumu ilə ciddi dağıntılara məruz qaldı.

### Kərkini niyə itirdik?

Bu suala cavab tapmaq üçün tarixi vərəqləmək lazım gəlir. Sədərəyin bir parçası olan Kərki ermənilərin zaman-zaman həyata keçirdikləri məkrli planların qurbanı idi. Və bu, 1990-cı ildə tam reallaşdı.

Sədərək kəndinin 8-10 kilometrliyində yerləşən, 960 hektara yaxın ərazini əhatə edən yaşayış məskənində "O tay", "Sulu zağa", "Bəzirxana", "Köhnə Kərki", "Dəlik daş", "Sənəm zağası", "Gavurqala", "Cəhənnəm dərə", "Şırran", "Qızıl daş", "Qurdbaba", "Alma yokkuşu", "Qırmızı güney", "Şurut bulağı" kimi toponimlər də bu torpağın qədim tarixinin nişanələrindəndir. Lakin bu nişanələri saxtalaşdırmaq, mənimsədikləri digər Azərbaycan torpaqlarıtək Kərkini əldə etmək kimi məkrli planlar həyata keçirməkdə usta olan ermənilər bu istəklərinə də elə addım-addım yaxınlaşdılar.

Tarixçi-alim Vaqif Məmmədov yazır: "Hələ Azərbaycan Demokratik Respublikasının yarandığı ilk dövrlərdən etibarən bir sıra iri imperialist dövlətlərinin Naxçıvan ərazisinə diş qıcayıb bu torpaqları ələ keçirməyə, Naxçıvanda öz hakimiyyətlərini qurmağa səy etdikləri bir vaxtda xəyanətkar qonşumuz olan ermənilər də bu fürsəti əldən verməyib Naxçıvanı ələ keçirmək, öz ərazilərini bu torpaqlar hesabına genişləndirmək iddiasında oldular. Hətta 1919-cu ilin mart ayında işğalçılıq məqsədilə Naxçıvana gələn ingilislər də Şərur-Dərələyəz mahallarının və Naxçıvanın ermənilərə verilməsini tələb etdilər. Ancaq həmin vaxt Naxçıvan, Nehrəm, Şərur və Sədərək əhalisi öz sözünü layiqincə dedi".

1921-ci il 16 mart tarixdə Moskva, həmin il oktyabr ayının 13-də isə Türkiyə, Rusiya, Azərbaycan, Ermənistan və Gürcüstan arasında imzalanmış Qars müqavilələrində adıçəkilən, eyni zamanda Sədərəklə Kərki arasındakı ərazidə yerləşən "Bağırsaq dərəsi", "Cəhənnəmdərə", "Qaraağac", "Qurdbaba", həmçinin onlara yaxın olan "Kərkinin düzü", "Həsənqulu bağı", "Kaha", "Bəzirxana", "Qızıldaş", "Köhnə Kərki" adlı yerlər də Azərbaycan ərazisi olub.

Lakin ermənilərin uzun illərboyu keçmiş SSRİ məkanında apardıqları xəyanətkar siyasətin nəticəsi olaraq heç bir əsaslı səbəb olmadan, hər iki müqavilənin şərtləri kobud şəkildə pozulmuş və həmin müqavilələri bağlayan dövlətlərin başı üstündən qanunsuz olaraq Zaqafqaziya SFSR MİK Rəyasət heyətinin 18 fevral 1929-cu il tarixli Qərarı ilə Azərbaycanın Naxçıvan MSSR ərazisindən 657 kvadratkilometr və ya 65 min 700 hektar torpaq sahəsi Ermənistana verilmişdir. Nəticədə, azərbaycanlı əhali zaman-zaman həmin əraziləri tərk etmiş və bu torpaqlar saxta yolla Ermənistan ərazisinə çevrilmişdir. Bütün bunlar azmış kimi Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 5 may 1938-ci il tarixli Qərarı ilə Naxçıvan Muxtar Respublikasının Kərki kəndi ətrafındakı torpaqların xeyli hissəsi Ermənistana verildi. Beləliklə, Kərki kəndi Azərbaycandan (Naxçıvan ərazisindən) tam təcrid olunaraq ada şəklinə düşdü.

Ardı 3-cü səhifədə



1989-cu ildən gözdənuzaq, könüldəniraq qalan Kərkinin başını qara buludlar aldı. Ermənilər Sədərəkdən Kərkiyə gedən avtomobil yolunu kəsdiyindən hər axşam Sədərəkdən Kərkiyə Qaraağac-Cəhənnəmdərə istiqamətindən yük maşını ilə, bəzən də piyada 30-40 nəfər könüllü müdafiəçi gedir, gecəni səhərə kərkililərlə birlikdə kəndin keşiyini çəkir, səhər geri qayıdırdılar. Vəziyyət o yerə çatmışdı ki, Kərkidə yalnız könüllü müdafiə dəstələrinin üzvləri və rus hərbçiləri qalmışdılar. 1990-cı il yanvarın 15-də səhər saat 4 radələrindən axşama qədər atışma getsə də, müasir silahlarla silahlanmış ermənilərlə döyüşən Kərkinin müdafiəçilərinin bütün səylərinə baxmayaraq, rus hərbçilərinin əli ilə Azərbaycanın qədim torpağı, Sədərəyin bir parçası olan Kərki ermənilərə "ərməğan" edildi.

### Sədərək necə qorundu?

Sədərək 1990-1993-cü illərdə 14 dəfə ermənilərin güclü hücumuna məruz qalıb, buraya 300-ə yaxın top mərmisi atılıb, 500-ə yaxın ev, məktəb, ictimai-inzibati binalar, sosial obyektlər dağıdılıb. Düşmənin məkrli planı, güclü texnika ilə qəfil hücumları və buna hazırlıqlı olmayan sədərəklilər. Hələ 1988-ci ildən başlayan hadisələr, silahlı hücumlar 1990-cı ildə kulminasiya nöqtəsinə çatdı.

Erməni-rus hərbi birləşmələri Sədərək yaxınlığındakı çox mühüm strateji əhəmiyyətə malik olan Kərki kəndini işğal etməklə, şimal-şərq istiqamətindən Sədərəyə tərəf xeyli irəliləyə bilmiş, Əjdəkan, Cin təndiri, Beşbarmaq, Ucubiz və Mil istiqamətlərindən Sədərəyi bir növ mühasirə vəziyyətinə salmışdılar. Beləcə, Sədərək ağır sınaqla üz-üzə qaldı.

Bütün bu çətinliklərə baxmayaraq, Sədərəkdə həyat yenə də öz axarında davam edirdi. 1990-cı il 19 yanvar tarixdə səhər saat 11 radələrində eşidilən atəş səsləri ilə məktəbdə dərslər dayandırılır. Naxçıvanın və Şərurun bütün rayon və kəndlərindən bu xəbəri eşidənlər köməyə gəlirlər. Sədərəklilər və Naxçıvanın müxtəlif bölgələrindən – Şərurdan, Ordubaddan, Culfadan, Naxçıvan şəhərindən, Nehrəmdən və digər kəndlərdən Sədərəyin köməyinə gələn el oğulları birləşərək öz sinələrini düşmənin önündə sipər edir, "öldü var, döndü yoxdu", – deyirlər. Və Sədərək həmin gün ilk şəhidlərini verir: Məhərrəm Seyidov, Mirhəşim Seyidov, Məhəmməd Məmmədov, Etibar Əhmədov, İdris Məmmədov, Abbasəli Nəzərəliyev, balaca Malik və Elvin qardaşları.

Səhər saatlarında daha ağır bir xəbərlə üz-üzə qalır sədərəklilər. Paytaxt Bakı şəhərində baş verən 20 Yanvar faciəsi hər kəsi sarsıdır. Lakin geri dönüş yoxdur. Özündə güc və iradə tapmaq, düşmənin illərdir, həsrətində olduğu Naxçıvan arzusunu gözündə qoymaq uğrunda mübarizə əzmi Sədərəyi Naxçıvanın müdafiə qalasına çevirir. Əli silah tutan hər kəs ayağa qalxır. Qadınlar, qocalar, uşaqlar kənddən çıxarılaraq yaxınlıqdakı Dəhnə adlı ərazidə müvəqqəti olaraq çadırlarda yerləşdirilir. 1 nömrəli məktəb boşaldılaraq hərbi kazarmanın ixtiyarına verilir. Hətta yuxarı sinif şagirdləri də gücləri çatan qədər kömək etməyə başlayırlar. Məktəbli uşaqlar dağlarda vuruşanlara çörək və su daşıyır. Naxçıvanın bütün kəndlərindən dəstə-dəstə könüllülər gəlir Sədərəyin köməyinə...

1990-cı il iyul ayının 22 -də Naxçıvana gələn ulu öndər Heydər Əliyev iyulun 28-də Sədərək kəndinə gedir. Burada baş verən hadisələrdən, azğın ermənilərin Sədərək üzərinə hücumlarından danışaraq əhalini daha dözümlü və əzmkar olmağa, düşmən qarşısında daha mətanətlə dayanmağa səsləyir.



29 avqust 1990-cı ildə Sədərək rayonunun yaradılması haqqında Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Qərarı çıxır. Qeyd edək ki, o vaxta qədər Sədərək kəndi Şərur rayonunun tabeliyində olub və rayonun yaradılmasında məqsəd bu bölgənin müdafiəsini və inkişafını gücləndirməyə xidmət edib. Daim sədərəklilərin yanında olan dahi rəhbər Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildikdən cəmi iki ay sonra imzaladığı "Naxçıvan Muxtar Respublikası Sədərək rayonunun inzibati ərazi bölgəsində dəyişiklik edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 1991-ci il 16 dekabr tarixli Qərarı da dahi şəxsiyyətin Sədərək rayonuna qayğı və diqqətinin təzahürü idi.

18 may 1992-ci il... Strateji baxımdan mühüm coğrafi mövqedə yerləşən Laçın rayonu Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilir. Ermənilərin digər planı ilə həmin gün Sədərək səddi də yarılmalı idi. Erməni təcavüzkarları bütün qüvvələrini cəmləşdirib üç istiqamətdən – Əjdəkan dağı, Beşbarmaq-Ucubiz və Mil dağı-Qaraburun istiqamətlərindən hücuma keçərək nəyin bahasına olursa-olsun rayonu işğal etmək qərarına gəlmişdilər. Düşmənin ağır hücum əməliyyatları nəticəsində Sədərək 38 şəhid verir. Yaralıların sayı isə bundan da çox olur. Mildə şəhid olanlardan 17 nəfərin nəşini götürmək mümkün olmur. Qəhrəman şəhidlərimiz ulu öndər Heydər Əliyevin səyi nəticəsində 10 gün sonra döyüşdükləri səngərdən götürülərək torpağa tapşırılır. Görkəmli dövlət xadimi Heydər Əliyev həmin ağır günlərdə Sədərəyin müdafiəsində yaralananların da taleyinə bir an belə biganə qalmır, onların müalicəsi ilə maraqlanır, ağır yaralıların qardaş Türkiyənin müxtəlif şəhər xəstəxanalarına göndərilməsi üçün ciddi tapşırıqlar verir.

1992-ci il mayın 28-i həm də əlamətdar bir hadisə kimi tarixə düşür. Həmin gün Azərbaycan-Türkiyə arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin inkişaf simvolu hesab olunan Sədərək-Dilucu körpüsü istifadəyə verilir. Körpünün açılışında Türkiyənin ozamankı Baş naziri Süleyman Dəmirəl və qardaş ölkənin digər yüksək səviyyəli hökumət nümayəndələri də iştirak edirlər. Təbii ki, bu səhər pusquda duran ermənilər üçün sarsıdıcı zərbə olur.

1993-cü ilə qədər davam edən müharibədə naxçıvanlılar ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşərək Sədərəyi mərdliklə qorumağa müvəffəq olurlar. Necə deyərlər, el bir olsa, dağ oynadar yerindən. Bu müharibədə 109 nəfər şəhidlik zirvəsinə yüksəlir.

### İllər sonra

Ümummilli lider 2002-ci ilin avqust ayında muxtar respublikaya səfəri çərçivəsində Sədərək rayon zəhmətkeşləri ilə görüşündə əvvəlki illəri belə xatırlayır: ***"Sədərək rayonunun Naxçıvan Muxtar Respublikasında, o cümlədən Azərbaycanda xüsusi yeri var. Böyük bir kənd olmuş və rayon statusu almış Sədərək həmişə bizim, Azərbaycanın ən kənar yerində, sərhəddə yerləşərək Azərbaycan torpaqlarını qorumuş, saxlamış və mərdlik nümunələri göstərmişdir. Mən indi qəsəbəni bu cür görəndə həddindən artıq sevinirəm".***

Ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü ilə Sədərək rayonu ərazisində salınan 71 ailədən ibarət nümunəvi qəsəbə ermənilərin hücumu nəticəsində bərbad vəziyyətə düşsə də, yenidən dirçəldilir. Sakinlərin təşəbbüsü ilə qəsəbə buranın qurucusu və yaradıcısı, görkəmli dövlət xadimi Heydər Əliyevin şərəfinə Heydərabad adlandırılır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Sədərək rayonunun sosial-iqtisadi inkişafı haqqında" 2000-ci il 15 mart tarixli Sərəncamı ilə həyata keçirilən məqsədyönlü tədbirlər sərhəd bölgəsinin inkişafına təkan verir.

*Mərkəzi Heydərabad qəsəbəsi olmaqla, abadlaşan, gözəlləşən Sədərək bu gün inkişafının ən yüksək dövrünü yaşayır. Sədərəklilər üçün 90-cı illərin o dəhşətli, əzab dolu günləri artıq geridə qalıb. Hər kəs Naxçıvanın qeyrət qalası Sədərəyin inkişafına öz töhfəsini verməyə çalışır. İnsanlar qurur, yaradır, şən, firavan günlərini yaşayırlar. Onlar artıq arxayındırlar. Nə 1918-ci ilin, nə 1948-1953-cü illərin, nə də 90-cı illərin rüzgarı artıq bu torpağın üstündən əsə bilməz. Sədərəyi dövrələyən o məğrur dağların başında müzəffər ordumuzun məğrur əsgərləri keşik çəkir. Bugünkü Sədərək düşmənə gözdağıdırsa, dağlarda məskən salan igidlərimiz yarılmaz səddir. O sədd Kərkiyəcən uzanacaq. Çünki tarix həqiqətin tərəfindədir.*

**Ruhiyyə RƏSULOVA**
***Naxçıvan Televiziyasının baş redaktoru***

## "Görkəmli Azərbaycan ədibi" mövzusunda interaktiv dərs





Naxçıvan şəhər 2 nömrəli tam orta məktəb

***Fevralın 20-də muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Naxçıvan şəhərində yerləşən Cəlil Məmmədquluzadənin ev-muzeyi arasında keçirilən interaktiv dərsdə qeyd olunub ki, dahi yazıçının Naxçıvan şəhərindəki ev-muzeyi ümummilli lider Heydər Əliyevin 1998-ci il 19 iyun tarixli Sərəncamı əsasən yaradılıb. Həmçinin Cəlil Məmmədquluzadənin vaxtilə müəllimlik etdiyi Nehrəmdə və Cəlilkənddə xatirə muzeyləri də istifadəyə verilib.***

Bildirilib ki, çoxəsrlik tarixə malik olan Azərbaycan ədəbiyyatının inkişafında böyük Azərbaycan yazıçı-dramaturqu Cəlil Məmmədquluzadənin mühüm xidmətləri olub. O, Azərbaycan ədəbiyyatının yeni mərhələyə yüksəlməsində müstəsna rol oynayıb, bütöv bir ədəbi məktəb formalaşdırıb. Ana dilinin saflığı uğrunda daim mübarizə aparmış ustad Mirzə Cəlilin ərsəyə gətirdiyi qiymətli dram və nəsr əsərləri, parlaq publisistika dərin humanist məzmuna malik olub, özündə milli və ümumbəşəri dəyərlərin vəhdətini ehtiva edir.

Diqqətə çatdırılıb ki, sovet dövründə yaradıcılığı və şəxsiyyəti ideologiyanın təhriflərinə məruz qalan görkəmli yazıçı-publisistin irsi ümummilli lider Heydər Əliyevin qayğısı sayəsində toplanılaraq nəşr edilib, ciddi tədqiqatların obyektinə çevrilib. Ölməz ədibin övladı qədər sevdiyi və bütün ömrünü həsr etdiyi "Molla Nəsrəddin" jurnalının faksimelesinin latın qrafikalı Azərbaycan əlifbası ilə yeni tərtibatda, nəfis şəkildə çap edilməsi də müstəqillik dönəmində ədibin irsinə və şəxsiyyətinə göstərilən misilsiz ehtiramı nümayiş etdirir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında görkəmli ədibin adı və xatirəsi daim əziz tutulub, əsərləri, o cümlədən ikicildlik "Seçilmiş əsərləri" yeni tərtibatda nəşr edilib. Görkəmli yazıçının həyat və fəaliyyətinə həsr edilmiş simpozium və elmi konfranslar keçirilib, ictimai-siyasi, ədəbi-bədii, elmi-publisistik "Naxçıvan" jurnalının bir nömrəsi Cəlil Məmmədquluzadəyə həsr olunub, adını daşıyan muzeylərin ekspozisiyaları zənginləşdirilib. Həmçinin ədibin "Hekayələr"i Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilib. Əsərləri daim teatrların repertuarlarında olub, böyük tamaşaçı rəğbəti qazanıb. Bunlarla yanaşı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2019-cu il 17 yanvar tarixli "Cəlil Məmmədquluzadənin 150 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncamına əsasən görkəmli ədibin yubileyinin dövlət səviyyəsində keçirilməsi, onun Naxçıvan şəhərindəki ev-muzeyi, adını daşıyan Naxçıvan Dövlət Musiqili Dram Teatrı və teatr binasının qarşısındakı əzəmətli heykəli Cəlil Məmmədquluzadə şəxsiyyətinə göstərilən ehtiramın bariz nümunəsidir.

Dərsdə vurğulanıb ki, Cəlil Məmmədquluzadənin əsərləri bu gün – Azərbaycanın müstəqilliyi dövründə də öz aktuallığını qoruyub saxlayıb.

İnteraktiv dərs 200-dən çox ümumtəhsil məktəbinin şagirdləri tərəfindən izlənilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

***Şahbuz rayonunda rayon üzrə fəaliyyət göstərən ümumtəhsil məktəbləri, məktəbəqədər və məktəbdənkənar təhsil müəssisələrində, musiqi məktəblərində sanitar-gigiyenik vəziyyət ilə bağlı maarifləndirici seminar keçirilib.***

## Maarifləndirici seminar keçirilib



Tədbiri giriş sözü ilə Şahbuz Rayon İcra Hakimiyyəti aparatının İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdir müavini Cəlal Paşayev açıb.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi aparatının rəhbəri Eltun Həziyev bildirib ki, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət uşaq siyasəti bu gün ölkəmizdə və muxtar respublikada uğurla həyata keçirilir. Naxçıvanda məktəbəqədər müəssisələr, ümumtəhsil məktəbləri və məktəbdənkənar müəssisələr istifadəyə verildikdən sonra bu müasirtipli infrastrukturların saxlanılma şəraiti, eləcə də sanitar-gigiyenik normalara əməl olunması əsas şərtlərdəndir.

Qeyd olunub ki, muxtar respublikada fəaliyyət göstərən dövlət uşaq müəssisələrində il ərzində bununla bağlı monitorinqlər aparılır. Keçirilən maarifləndirici seminar həmin müəssisələrdə sanitar-gigiyenik normaların daha da təkmil təmin olunması, aparılan işlərin yüksək səviyyədə görülməsi və onların həyata keçirilmə metodlarını aşılamaq məqsədi daşıyır.

Diqqətə çatdırılıb ki, müvafiq sahədə sanitar-gigiyenik vəziyyətə məsul olan şəxslər öz işlərinə biganə yanaşdıqda Azərbaycan Respublikasının sanitariya qanunvericiliyini pozmağa görə məsuliyyət daşıyırlar.

Seminarda Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin əməkdaşı Abdulla Əsgərov, Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin əməkdaşı Qurbani İbrahimov çıxış ediblər. Çıxışlarda ümumtəhsil məktəblərində və məktəbdənkənar təhsil müəssisələrində sanitar-gigiyenik vəziyyətdən danışılıb. Qeyd olunub ki, uşaqların fəaliyyəti üçün müvafiq şərait yaradılmalı, uşaqlar üçün binada və onun həyətində kifayət qədər sahə olmalıdır. Çıxışlarda mövcud nöqsanlar və onların aradan qaldırılma yolları da diqqətə çatdırılıb.

Sonda tədbir iştirakçılarına müvafiq sahə ilə əlaqədar hazırlanmış broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 17 mart 2020-ci il tarixdə açıq hərraca çıxarılacaq nəqliyyat vasitələri haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq nəqliyyat vasitələri | Hüquqi ünvanı | Nəqliyyatın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 10 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 2011-ci il buraxılışlı KAMAZ 50t markalı avtokran | Naxçıvan şəhəri | 90 000 | 9 000 |
| 2. | 2013-cü il buraxılışlı KAMAZ 25t markalı avtokran | Naxçıvan şəhəri | 50 500 | 5 050 |
| 3. | 2012-ci il buraxılışlı KAMAZ 13 mini pulyator markalı avtokran | Naxçıvan şəhəri | 40 000 | 4 000 |
| 4. | 2008-ci il buraxılışlı HOWO yük markalı özüboşaldan | Naxçıvan şəhəri | 29 000 | 2 900 |
| 5. | 2008-ci il buraxılışlı MERCEDES D 414 K yük markalı özüboşaldan | Naxçıvan şəhəri | 36 000 | 3 600 |
| 6. | 2012-ci il buraxılışlı MERCEDES 3340 K yük markalı özüboşaldan | Naxçıvan şəhəri | 60 000 | 6 000 |
| 7. | 2013-cü il buraxılışlı MERCEDES D 3340 K yük markalı özüboşaldan | Naxçıvan şəhəri | 60 000 | 6 000 |
| 8. | 2012-ci il buraxılışlı MERCEDES 3340 K yük markalı özüboşaldan | Naxçıvan şəhəri | 60 000 | 6 000 |
| 9. | 2012-ci il buraxılışlı MERCEDES 3340 K yük markalı özüboşaldan | Naxçıvan şəhəri | 60 000 | 6 000 |
| 10. | 2014-cü il buraxılışlı MERCEDES 3340 K yük markalı özüboşaldan | Naxçıvan şəhəri | 60 000 | 6 000 |
| 11. | 2011-ci il buraxılışlı CATERPİLLAR 272 C markalı təkərli yükləyici | Naxçıvan şəhəri | 25 000 | 2 500 |
| 12. | 2011-ci il buraxılışlı CATERPİLLAR 272 C markalı təkərli yükləyici | Naxçıvan şəhəri | 25 000 | 2 500 |
| 13. | 2011-ci il buraxılışlı HİDROMEK 300 LC-LR markalı ekskavator | Naxçıvan şəhəri | 65 000 | 6 500 |
| 14. | 2009-cu il buraxılışlı HİDROMEK 200 HMK markalı ekskavator | Naxçıvan şəhəri | 55 000 | 5 500 |
| 15. | 2013-cü il buraxılışlı HİTACHİ 330-5g markalı ekskavator | Naxçıvan şəhəri | 90 000 | 9 000 |
| 16. | 2013-cü il buraxılışlı WASKER NEUSON 50 z3 markalı tırtıllı ekskavator | Naxçıvan şəhəri | 31 000 | 3 100 |
| 17. | 2013-cü il buraxılışlı WASKER NEUSON 50 z3 markalı tırtıllı ekskavator | Naxçıvan şəhəri | 31 000 | 3 100 |
| 18. | 2013-cü il buraxılışlı WASKER NEUSON 50 z3 markalı tırtıllı ekskavator | Naxçıvan şəhəri | 31 000 | 3 100 |
| 19. | 2013-cü il buraxılışlı WASKER NEUSON 38 z3 markalı tırtıllı ekskavator | Naxçıvan şəhəri | 29 000 | 2 900 |
| 20. | 2013-cü il buraxılışlı WASKER NEUSON 75 z3 markalı tırtıllı ekskavator | Naxçıvan şəhəri | 35 000 | 3 500 |
| 21. | 2013-cü il buraxılışlı WASKER NEUSON markalı Vərdənə | Naxçıvan şəhəri | 6 500 | 650 |
| 22. | 2013-cü il buraxılışlı KRAMER ALRAT 350 markalı yükləyici | Naxçıvan şəhəri | 20 000 | 2 000 |
| 23. | 2012-ci il buraxılışlı HELİ H2000 markalı çəngəlli yükləyici | Naxçıvan şəhəri | 14 500 | 1 450 |
| 24. | 2012-ci il buraxılışlı SAKAİ markalı Vərdənə | Naxçıvan şəhəri | 4 500 | 450 |
| 25. | SM 35 markalı qırıcı | Naxçıvan şəhəri | 2 000 | 200 |
| 26. | SM 40 markalı qırıcı | Naxçıvan şəhəri | 2 000 | 200 |
| 27. | SM 40 markalı qırıcı | Naxçıvan şəhəri | 2 000 | 200 |
| 28. | CAT 432 markalı qırıcı | Naxçıvan şəhəri | 2 500 | 250 |
| 29. | CAT 432 markalı qırıcı | Naxçıvan şəhəri | 2 500 | 250 |
| 30. | HMK 102S markalı qırıcı | Naxçıvan şəhəri | 1 500 | 150 |
| 31. | CAT 336D markalı qırıcı | Naxçıvan şəhəri | 1 500 | 150 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 10 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 13 mart 2020-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ 21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- ödəniləcək behin qəbzi;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 17 mart 2020-ci il tarixdə saat 11$^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 17 mart 2020-ci il tarixdə açıq hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| S/s | Hərraca çıxarılacaq əmlaklar | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faizi həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|
| 1. | 0.7308 ha torpaq sahəsində yerləşən metaləritmə zavodu, ofis və istehsal sexi, ofis binası, dülgər və boya sexi | Azərbaycan küçəsi, 20 | 1 021 000 | 51 050 |
| 2. | 1.9307 ha torpaq sahəsində yerləşən mebel istehsalı müəssisəsi | Azərbaycan küçəsi, 13 | 1 837 000 | 91 850 |
| 3. | 3.5025 ha torpaq sahəsində yerləşən beton məmulatları kompleksi | Babək rayonu, Babək qəsəbəsi | 930 000 | 46 500 |
| 4. | 3644.94 kvadratmetr torpaq sahəsində yerləşən çoxmərtəbəli bina | Naxçıvan şəhəri, İ.Məmmədov küçəsi $1^A$ | 1 457 600 | 72 880 |
| 5. | 0.03 ha torpaq sahəsində yerləşən qeyri-yaşayış binası | Xətai məhəlləsi, döngə 8/80 | 150 000 | 7 500 |
| 6. | 0.4732 ha torpaq sahəsində yerləşən əmlak kompleksi | Xətai məhəlləsi, döngə $8/69^A$ | 120 000 | 6 000 |
| 7. | 1.1322 ha torpaq sahəsi | Azərbaycan küçəsi, $20^A$ | 390 000 | 19 500 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. Hərraca çıxarılan əmlakın ilkin satış qiymətinin 5 faiz məbləğində beh Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki İcra Məmurlarının Xüsusi Vəsaitlər Fonduna 13 mart 2020-ci il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsindəki AZ21NABZ12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu vaxtdan auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*

*- ödəniləcək behin qəbzi;*

*- hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*

*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

Hərrac 17 mart 2020-ci il tarixdə saat 11$^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.

***Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.***
***Əlaqə telefonu: 545-01-38***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

### *Naxçıvan Müəllimlər İnstitutu boş olan kafedra müdiri vəzifələrini tutmaq üçün müsabiqə elan edir*

*1. İncəsənət kafedrası*

*2. Ümumi fənlər kafedrası*

Kafedra müdiri vəzifəsini tutmaq üçün müsabiqədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tələblərinə cavab verən şəxslər iştirak edə bilərlər.

Sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində qəbul edilir. Müsabiqədə iştirak etmək istəyənlər sənədlərini rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana şəxsən təqdim edə və ya göndərə bilərlər.

***Ünvan: Naxçıvan şəhəri,***
***Heydər Əliyev prospekti 2.***
***Naxçıvan Müəllimlər İnstitutu***
***Rektorluq***
***Əlaqə telefonu: 545-32-02***

## Müşavirə keçirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırki vəziyyəti və qarşıda duran vəzifələr haqqında" 1 fevral tarixdə keçirilən müşavirədə qarşıya qoyulan vəzifələrlə bağlı Sədərək rayonunda müşavirə keçirilib.*

Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov tədbirdə çıxış edərək bildirib ki, ümummilli liderin əsasını qoyduğu idman siyasəti onun layiqli davamçısı, ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə Prezidentinin diqqət və qayğısı ilə Azərbaycanda idman özünün ən yüksək inkişaf mərhələsinə qədəm qoymuşdur. Ötən müddətdə idmanın və bədən tərbiyəsinin inkişafı, eləcə də Azərbaycanın dünyada idman ölkəsi kimi tanıdılması sahəsində mühüm tədbirlər həyata keçirilmiş, müasir idman infrastrukturu yaradılmışdır.

Natiq qeyd edib ki, Naxçıvan Muxtar Respublikasında da idman siyasəti Ali Məclisin Sədri tərəfindən uğurla həyata keçirilir. İdmanın maddi-texniki bazası gücləndirilmiş, bədən tərbiyəsi və idmanın kütləvi hal alması üçün müasir olimpiya idman kompleksləri və digər idman obyektləri tikilərək gənclərin istifadəsinə verilmişdir. İdman və idmançılara göstərilən bu qayğı, yaradılan şərait, öz növbəsində, muxtar respublikamızı beynəlxalq və yüksək səviyyəli yarışların keçirildiyi bir məkana çevirmişdir.

Vurğulanıb ki, Ali Məclis Sədrinin diqqət və qayğısı sayəsində muxtar respublikamızın bütün bölgələrində olduğu kimi, Sədərək rayonunda da müasir idman infrastrukturu yaradılıb. Belə ki, rayonda şahmat məktəbi, Uşaq-gənclər idman məktəbi, mərkəzi stadion, süni örtüklü mini-futbol meydançası, məktəblərdə müasir idman zalları və açıq idman qurğuları idmanla məşğul olanların istifadəsindədir. Bu sahəyə göstərilən qayğının nəticəsidir ki, ötən ilin noyabr ayında rayonun təbii örtüklü futbol meydançası yenidən qurularaq idmançıların istifadəsinə verilib.

Qeyd olunub ki, rayonun idmançıları Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş karate-do idman növü üzrə muxtar respublika çempionatında, ümummilli lider Heydər Əliyevin anadan olmasının 96 illiyinə həsr olunmuş boks idman növü üzrə muxtar respublika birinciliyində, boks idman növü üzrə 2004-2005-ci illər təvəllüdlü yeniyetmələr arasında Bakı şəhərində keçirilən klublararası açıq birincilikdə və digər idman yarışlarında uğurla iştirak ediblər.

Sonra rayon Gənclər və İdman İdarəsinin rəisi Polad Rzazadə, Uşaq-gənclər idman məktəbinin direktoru Nizami Bağırov görülən işlərdən danışıblar.

Tədbirdə Sədərək rayonunda cari ildə idman sahəsində görüləcək işlərlə bağlı tədbirlər planı təsdiq edilib.

Sonda ötən il idman sahəsində fərqlənən idmançılar mükafatlandırılıblar.

**Sərxan İSMAYILOV**

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Nail Əsgərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 180